Hürriyyət
Tarix
SİZİN ÜÇÜN QƏZET
№23 (3362) 8 İyul / 2025-ci il
www.hurriyyet.az; / hurriyyet@mail.ru



Mən Yardımlı elinin "Bəylər kəndi" kimi tanınan Gilar kəndində 26 mart 1937-ci ildə Sultanlı ailəsində doğulmuşam. Avtobioqrafiyam təkcə uğurlarımdan ibarət deyildir. Bu, həm də həyat yolumda başıma gələnlərin, rastlaşdıqlarımın kiçicik bir hissəsini əhatə edir. Onlardan vaz keçib yalnız uğurlarımdan danışmaqdan da vaz keçirəm.




# Avtobioqrafik xırdalıqlar

*(Əvvəli ötən sayımızda)*

Qırx gün müddətinə dərslərimdə xeyli geriləmə olmuşdu. Hər gün 12 kilometrlik məsafəni gedib-gəlmək, keçilmiş dərsləri mənimsəmək, gündəlik dərsləri öyrənmək olduqca ağır idi. Dərs ili başa çatdı. orta məktəbin 9-cu sinifini bitirdim. Qulaməli müəllim isə Yardımlıdan çıxıb Masallının elinin Bədəlan orta məktəbində işə düzəlmişdi. Yay istirahəti zamanı dərsləri təkrarlamağa gecə-gündüz bilmədən çalışırdım. Ancaq əlavə vəsaitlər olmadığından, böyük çətinliklərlə qarşılaşmalı olurdum.

Məktəbdə oxuyarkən ən böyük arzum ali məktəbdə oxumaq idi. Elə bilirdim, ali təhsilli olmasam, vecsiz bir adam olaram. Sentyabr ayı çatdı, dərslər başladı. Onuncu sinifin dərsləri üstə gəl buraxılmış dərslərə hazırlaşmaq. Qulaməli müəllim öz kəndlərindəki orta məktəbdə müəllim idi. O, mənim dərslərimdən çox nigaran qaqlırdı. Məni Bədəlan orta məktəbinin 10-cu sinfinə apadı. O, özü ali təhsilli dil-ədəbiyyat müəllimi olsa da, fizikanı, riyaziyyatı, astronomiyanı, kimyanı, biologiyanı, tibbi, texnikanı gözəl bilirdi və mənimlə gündəlik məşğul olurdu. Gecə-gündüz dərs oxumalı olurdum. Az müddətə məktəbdə nümunəvi şagirdə çevrildim.

Məktəb müəllimlərim (astronomiyanı Qulaməli müəllim, riyaziyyatı əslən Boradigahlı Məmmədhəsən müəllim, fizikanı Bədəlanlı İsrafil Kərimov, kimyanı əslən Lerikli Alxas müəllim, ədəbiyyatı əslən Çaykəndli Salman Mikayılov, tarixi əslən Ərkivanlı Fazil müəllim, rus dilini əslən Bədəlanlı Abbasəli Həsənov, fransız dilini əslən Ərkivanlı Hacıbaba müəllim deyirdi) məni qısa müddətdən sonra məktəbdə hamıya ömək göstərirdilər. Müəllimlərim ali təhsilli, yüksək savadlı, təmiz mənəviyyatlı, enerjili, fənnini tədris etməyə həvəsli, vətənsevər insanlar idilər. Məktəbdə hər bir fəndən dərnək çalışmaları olurdu. Vaxt tapıb astronomiya, fizika, riyaziyyat, tarix, ədəbiyyat dərnəklərinə də gedirdim. O zaman "fizika-riyaziyyat tədrisi metodikası" adlı jurnal da çıxırdı. Qulaməli müəllim bu jurnala abunə idi. Həmin jurnal da fizikanı, riyaziyyatı öyrənməyimdə "bacarıqlı" müəllimim oldu.

Unutmaq olmaz ki, bədəlanınlılar mənə xüsusi rəğbət, böyük ümid bəsləyirdilər. Görünür, Qulaməli müəllimin etimadını doğrulda bilmişdim. Bunları, bir də, anamı nigaran qoyub Bədəlana gəlməyimi düşünəndə, ali məktəbə qəbul olunmayacağım halı özüm üçün facie sayırdım. Bunu duyan anam da mənim bəxtiyarlığımı ali təhsil almağımda görürdü. Ali təhsil almaq mənim ali isteyim olmuşdu, ali təhsil ala biləməyəcəyimi ağlıma sığışdıra bilmirdim. Dövlət imtahanlarını yüksək göstəricilərlə verdim, Gümüş Medala layiq görüldüm. Orta məktəbi bitirib Sergey Mironoviç Kirov adına Azərbaycan Devlət Universiteti (indiki BDU) fizika-riyaziyyat fakültesinin fizika şöbəsinə (bir ildən sonra müstəqil fizika fakültəsi) verdim. Qulaməli müəllim də mənimlə idi. O, geri qayıtdı, mən də onun bir qohumunun evində qaldım. İmtahanlar da başlananda ilk imtahanı (riyaziyyatdan yazılı) verdim. Bir neçə gündən sonra qohum yayı Lənkərana getməli oldu, qalmağa yerim olmadığı üçün imtahanlara davam etməyib geri dönməli oldum. Əslində, riyaziyyatdan imtahanı yaxşı səviyyədə verdiyim və cavabını öyrənmədən geri qayıtdım. O çağlar şəhər mühitinə bələd deyildim, şəhərdə heç yeri tanımırdım, tanış-bilişim də yox idi. Anamın, bacımın bişirdiyi çörəyi, xörəkləri yeməyə öyrəşmişdim, şəhərdə olan bütün növ ərzaqlardan iyrənirdim. Bakıda yaşamağımın ən başlıca problemlərindən biri də elə, bu idi. Bakıda havalar çox isti keçirdi, adamı kölgədə də tər basırdı, şəhər neft-mazut qoxulu, toz-torpaqlı olurdu. Bir yandan da, aramsız külək əsirdi. Özümü heç vaxt təsəvvürümə gətirə bilmədiyim darıxdırıcı bir aləmdə, cansıxıcı bir mühitdə hiss edirdim. Şəhər adamlarında kəndimizin adamlarından kəskin fərqli cəhətlər görürdüm, davranışlarda, məişətlərdə böyük fərqlər görüb buraya uyğunlaşa bilməyəcəyimi düşünürdüm. Bütün bunları təsəvvür etmədiyimə görə, qəbul etməyə də özümü öncədən hazırlamamışdım. Çünki Bakı kimi bir şəhər haqqında öncədən gerçək təsəvvürüm yox idi. Şəhər mühiti məni ölüm həddinə qədər sıxırdı, darıxdırırdı, bezdirirdi. Dünyagörüşüm məhdud idi, geniş düşünmək imkanlarım yox dərəcəsində idi.

## Tələbəlik dönəmim, gənclik illərim

Sənədlərimi 1957-ci ilin iyulunda Sergey Mironoviç Kirov adına Azərbaycan Devlət universitetinin fizika-riyaziyyat fakültəsinin fizika şöbəsinə verdim. Təbiətcə hər yeməkdən iyrənən olduğumdan çox keçmədi, bədəncə zəiflədim və xəstələndim, hərarətim 39-40 dərəcəyədək qalxdı. İmtahanları belə halımda verməli olurdum. İmtahan götürən müəllimlər (riyaziyyatdan Qoşqar Əhmədli, Maqsud Cavadov; fizikadan Kəriş Köçərli, Osman Kərimov) yüksək hərarət içində ola-ola imtahan verməyimi məsləhət bilmirdilər, dedilər, belə halda kəsilə bilərsən, xəstəlik haqqında arayış alsan, sağalıb imtahan verərsən, qəbul olunarsan. Mən düşünürdüm, xəstə olsam da, imtahanları verməyə imkanım tükənməyib. Belə bir durumla inad göstərib imtahanları verdim və ADU-nun fizika-riyaziyyat fakultəsinin fizika şöbəsinə qəbul olundum. O çağlar kəndimizdə ali təhsilli bir kəs belə, yox idi. Ona görə də mənim ölkənin ən möhtəşəm ali məktəbinə, onun da ən möhtəşəm bir fakultəsinə qəbul olunmağım kəndimiz üçün qürurverici idi. Ancaq bu olay həyatımın ağrılı çağlarından birinə çevrildi.

Mən heç kimə ziyanı dəyməyən, tərbiyəsinə görə kənddə hamıya örnək sayılan bir uşaq olmuşam. Mənimlə mübarizəyə rəvac verəcək bir narazılıq olmayıb. Haqqımda rəhbərliyə göndərilən "xalq düşməni"nin, "əksinqilabçı"nın oğlu olmağımın vurğulandığı imzasız məktublar ara vermədi. Hər məktuba görə Qafarov soyadlı şəxsin rəis olduğu "Xüsusi Şöbə"yə çağırılaraq sorğu-suala tutulurdum. Aspiranturaya qəbul olunduğum sonrakı illərdə də bu, davam etdi. Yaxınlarıma mənəvi yük olmasın, siyasi cəhətlərimin açılmasını, o sıradan da insanların mənə yazığının gələcəyini istəmədiyimdən, durumumu heç kəsə bildirmirdim. Verilən sorulara lazımi cavabları izahatım vasitəsilə bildirirdim. Ancaq, məni sıxışdırmırdılar. Mənimlə mülayim rəftar edirdilər. Bunu belə gördükdə ürəklənirdim, cəsarətlənirdim. Tələbə olduğum ilk gündən sovet devlətinin əleyhinə hər yerdə, hər zaman təbliğat aparırdım. Bizim xalqı "başdan-başa" savadsız, avam deyə aşağılamağı qəbul etmirdim. Təbliğatımda savadsız, avam olmadığımızı bildirmək üçün bilgim azlıq edirdi. Bunun üçün geniş bilgili adamlarla əlaqə yaratmağıma böyük ehtiyacım vardı. Məmməd İbrahimov (sonradan Məmməd Araz) adlı şairin millətçi olduğunu deyirdilər. Orta məktəbdə oxuduğum zaman kimya müəllimim Alxas Leriklinin məni tanış elədiyi qaynı filosof Mirzağa Rüstəmovdan şair Məmməd İbrahimovun Azərnəşrdə, 2-ci ötəcdə işlədiyini öyrəndim. 1957-ci ilin təqribən oktyabr ayında Azərnəşrə gedib şairi tapdıım və məqsədimi ona dedim. Şair öncə bir qədər şübhələndi məndən, sonra sevincli halda mənə bir çox alimlərimizin, şairlərimizin... adlarını dedi və nə vaxt istəsəm, onun yanına gedə biləcəyimi dedi. Müntəzəm olaraq şair Məmmədİbrahimovun yanına müxtəlif suallarla gedirdim, ondan məsləhətlər alırdım. Şərqşünaslıq fakultəsinin 1-ci kurs tələbəsi Əbülfəz Əliyevlə tanışlığımdan sonra onu da Azərnəşrə aparıb şairlə tanış etdim və onun tələbə yoldaşları və dostları Malik Mahmudovla, Zeynalabdin Zeynalovla... da şairimizin yanina gedirdik.

Birinci kursun birinci semestrindən sonra kanikula getmişdim. Qayıdanda yolpulum tapıldı. Ancaq, evdə Bakının 8-ci kilometr qəsəbəsində yaşayan bir qohumumuzun adresini verərək çətinliyim olsa, onlardan borc pul ala biləcəyimi dedilər. Gətirdiyim pul az müddətə tükəndi, bir neçə gün pulsuz qaldım. Sonra çıxılmaz durumda qalaraq borc pul almaq dəftər-kitab... almağa bəs eləmədi. Pul üçün 8-ci kilometr qəsəbəsindəki qohumumuz gilə getməli oldum. O çağlar oraya başqa minik işləmirdi, indiki. Əzizbəyov metro stansiyasınadək Sabunçiyə gedən qatarla getdim, ondan o yana 4-5 kilometrlik yolu piyada getməli olurdum. Onda qatar oraya indiki pulla təqribən 20 qəpiyə aparırdı. Mənim isə qatarla getməyə pulum yox idi. Özlüyümdə dedim qayıdanda pulum olar, qatarla qayıdaram. Bakıdan 8-ci kilometr qəsəbəsinə piyada soruşa-soruşa getməli oldum. O zaman 8-ci kilometr qəsəbəsində əhali çox deyildi. Ona görə də qohumumuzun evini çox da çətinlik çəkmədən tapa bildim. Doğrudur, çay-çörək gətirdilər, mənimlə söhbət etdilər, ancaq ehtiyacım barədə heç nə soruşmadılar. Mən isə, utandığımdan pul üçün gəlmiş olduğumu deməyimə şərait yaranmadı. Artıq hava qaralırdı. Gecəyə düşəcəyimdən, o çağlar üçün səciyyəli olan özbaşınalıqların baş verə biləcəyindən ehtiyatlanıb yataqxanaya (o çağkı Politexnik İnstitutunun yaxınlığındakı Krılovi (ndiki: Məmməd Arif) küçəsi 5-də yerləşirdi) qayıtmağa tələsdim. Əzizbəyov metrostansiyasıyasına çatanda hava artıq qaralmışdı. Şəhərə piyada qayıda bilməyəcəyimi görüb qatara minməli oldum. Düşündüm, başqa çıxış yolum yoxdur. Qatar adamla dolu idi. Nəzərdən yayınmaq üçün adamların gur yerinə keçdim. Bir-iki



Bəhmən SULTANLI

rusdilli yoxlayıcılar biletləri yoxlamağa gəldilər. Mənə çatanda biletimin olmadığını bildirdim. Pul istədilər, pulum olmadı. Məni arxa qapıya gətirdilər, istədilər, qatar gedə-gedə itələyib yerə salsınlar. Ancaq onların əlindən sürüşüb çıxa bildim...

Bir müddət keçəndən sonra artıq təsəvvürlərim bir az genişlənmişdi, şəhərə az-çox bələd idim, qanunlarını da anlayırdım, bilirdim çətinliklərdən qurtulmaq üçün həyatla çarpışmaq, yollar aramaq gərəkdir. Dördüncü kursda oxuyanda "Azərbaycan Elmi və Siyasi Bilikləri Yayan Cəmiyyət"in (sonradan "Bilik Cəmiyyəti") olduğunu, bu cəmiyətə üzv olaraq onun xətti ilə rayonlarda, müəssisələrdə mühazirələr oxuyaraq pul qazanmağın mümkünlüyünü öyrənmişdim. Bu cəmiyətin üzvü olmaq fikrinə düşdüm. Cəmiyət indi Atatürk Mərkəzi yerləşən binada idi. Gedib cəmiyyətin sədri olan Qeysər Xəlilova müraciət etdim. Qeysər müəllim məni çox yaxşı qarşıladı, cəmiyyətin idarə heyətinin katibi Naibə Eyvazovaya məni qəbul etməyi, mühazirə oxumaq üçün məni bir neçə rayona göndərməyi tapşırdı. Ancaq, onların özlərinin dediklərinə görə, tələbəni həmin cəmiyətə üzv qəbul etmirdilər. Naibə xanım mədəni, tərbiyəli, bacarıqlı, milli qeyrətli bir qadın idi. O, mühazirəçilərin əsasən başqa millətlərdən olduğu eyhamını vurdu, özümüzünkülərin hansı səbəbdənsə cəmiyyətlə əlaqələrinin zəif olduğunu bildirdi. Məni göndərmək istədiyi müəssisələrdən biri Vanua Strua adına Gəmi Təmiri zavodu idi. Bu zavodun işçiləri ruslardan və rusdilli millətlərdən idi. Bu zavoda getmək istədiyimi bildirdim. Çünki tələbə idim, rayonlara getmək imkanlarım yox idi. Qeysər Xəlilova da, Naibə xanım Eyvazovaya da Allahdan rəhmət diləyirəm. Aramsız əngəlləyici cəhdlər cürbəcür çətinliklər yaratsa da, əlçatmaz iradəm sayəsində oxumağımı əngəlləmək, onun qarşısını almaq mümkün olmadı...

*(Ardı var)*